**UOT 327**

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ELMİ-KONSEPTUAL ƏSASLARI, ƏSAS PRİNSİPLƏRİ VƏ PRİORİTETLƏRİ

**Aygün ƏLİYEVA***

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Heydər Əliyev, İlham Əliyev, xarici siyasət, Xarici İşlər Nazirliyi*

***XÜLASƏ***

Məqalə müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin elmi-konseptual əsasları, əsas prinsipləri və prioritetlərinin tədqiqinə həsr olunub. Aparılan tədqiqat nəticəsində aydın olur ki, Azərbaycanın müstəqil dövlət kimi xarici siyasətinin elmi konseptual əsaslarının formalaşdırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun çıxışlarında dövlətimizin xarici siyasətinin elmi əsasları müəyyən edilmiş və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və 27 noyabr tarixində qüvvəyə minmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Tədqiqatın gedişində Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifə və prinsipləri sistemli şəkildə tədqiq olunmuşdur. Məqalənin sonunda isə Azərbaycan Respublikasının xarici siyasətin əsas prioritetləri də təhlil edilmişdir. Bütövlükdə məqalədə əldə olunan ən mühüm nəticə budur ki, Azərbaycan Respublikası prezident, cənab İlham Əliyevin rəhbərliyi altında balanslı regional siyasət yeritməklə ölkənin təhlükəsizliyini və müstəqil gələcəyini təmin edə bilir. Dövlət quruculuğu prosesi daimi xarakter daşıyır. Bu gün modern Azərbaycan Respublikasının quruculuğu ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik prinsipləri söykənir və uğurla davam etdirilir.

## Giriş

Bu gün Azərbaycan Respublikası müstəqil xarici siyasət yeridən respublikadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət sahəsindəki uğurlarının əsas səbəbi budur ki, o, müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri qabaqcadan görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün hazırlaya bilir. Azərbaycan xalqının gələcəyi üçün böyük inam və etibarlı təminatdır ki, onun Prezidenti bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlaya bilir, müasir səviyyəli, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır. Bununla, ona "özü qədər inanan" ulu öndər Heydər Əliyevin siyasi vəsiyyətini, etimadını şərəflə doğrulda bilir. Məhz Ulu Öndərlə başlayıb cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan Respublikasının xarici siyasəti sağlam elmi-konseptual əsaslara, xarici siyasətin dəqiq müəyyən edilmiş əsas vəzifə, prinsip və prioritetlərinə söykənir.

## I. Azərbaycanın xarici siyasətinin elmi-konseptual əsasları

Azərbaycanın xarici siyasətinin elmi-konseptual əsasları ümummilli lider Heydər Əliyevdən başlanmış, bu gün onun sələfi prezident İlham Əliyev tərəfindən uğurla və daha yeni formada davam etdirilir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətdə çətin, lakin şərəfli yol qət etmişdir. Ötən dövr ərzində müstəqilliyinin ilk illərində beynəlxalq aləmdən

* *Bakı Slavyan Universiteti*
*E-mail: aygun.ibrahimova@yahoo.com*

təcrid edilmiş, erməni lobbisinin səyləri ilə dünya informasiya məkanında blokadaya alınmış vəziyyətdən regional təşəbbüskar və lider səviyyəsinə yüksələ bilmişdi (5). Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət strategiyası müstəqil Azərbaycanın xilasına, gələcək inkişaf strategiyasının müəyyən edilməsinə yönəlmişdi. İlkin mərhələdə Azərbaycan beynəlxalq aləmdə düşdüyü təcrid vəziyyətindən çıxarılmış, balanslı xarici siyasət xətti yeridilmiş, dünya iqtisadiyyatına və Avratlantik məkana inteqrasiya, dünya azərbaycanlılarının mütəşəkkil fəaliyyət göstərməsi üçün təşkilatlanması Azərbaycan xarici siyasətinin elmi-konseptual əsaslarını təşkil etmişdir. Sonrakı mərhələdə isə Azərbaycanın regionun iqtisadi mərkəzlərindən birinə, beynəlxalq aləmdə söz sahibinə çevrilməsi bu strategiyanın konseptual əsaslarına daxildir.

Balanslı xarici siyasət, bərabərhüquqlu tərəfdaşlıq və milli maraqlar əsasında müstəqil siyasət prinsiplərinə söykənən praqmatik siyasi kurs, çoxvektorlu əməkdaşlıq Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin xarici siyasət konsepsiyasına gətirdiyi mühüm faktorlardır. Bu gün Prezident İlham Əliyev həmin ənənələri uğurla davam etdirməklə beynəlxalq müstəvidə Azərbaycanın mövqeyini daha da möhkəmləndirmiş və yeni mərhələyə yüksəltmişdir. Qısa zaman kəsiyində əldə edilən mühüm layihələr, qazanılan böyük imic, mövcud siyasi iradə Prezident İlham Əliyevin müstəqil xarici siyasət aparmasına şərait yaradır. Bugün Azərbaycan beynəlxalq aləmdə adi iştirakçı deyil, əhəmiyyətli və böyük layihələrin təşəbbüskarı və nüfuzlu tərəfdaşı olan ölkədir (5).

## II. Azərbaycan Respublikasının xarici siyasətinin vəzifə və prinsipləri

Azərbaycan Respublikasının da hər müstəqil dövlət kimi xarici siyasətinin özünəməxsus vəzifə və prinsipləri var. Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin elmi-konseptual əsasları, əsas vəzifə və prinsipləri 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsinə əsasən, *"Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutan prinsiplər əsasında qurur"* (7, s.6). Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında *"Respublikamızın müstəqilliyini möhkəmlətmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır"* (1, s.205) deyə qeyd etmişdir. Bu məqsədlə qarşıda aşağıdakı vəzifələrin durduğunu bildirmişdir:

–Xarici siyasəti Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəltmək;

–Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək;

–Xarici siyasətdə qurulan əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək (1, s.205).

Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı kimi qruplaşdıra bilərik:

–Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qoruyub saxlamaq;

–Azərbaycan Respublikasının təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;

–Azərbaycanın beynəlxalq və regional təşkilatlarda təmsil olunmasını, böyük dünya siyasətinə qatılmasını, beynəlxalq və regional münasibətlərin həllində fəal iştirakında layiqli yer tutmasına nail olmaq;

–Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı olaraq faydalı olan əməkdaşlıq qurmaq, yaradılan əlaqələrdən respublikada iqtisadiyyat, elm və mədəniyyətin inkişafında səmərəli amil kimi faydalanmaq;

–Azərbaycanın dövlətçilik və milli mənafelərinə uyğun mənafeyi olan dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmaq;

–Respublikanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsində qurulan münasibətlərin yaratdığı imkanlardan yararlanmaq;

–Respublikanın demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsini, müstəqil xarici siyasət yeritməsi üçün əlverişli beynəlxalq şərait yaranmasına çalışmaq;

–Respublika əhalisinin əsas hüquq və azadlıqlarının təmin edilməsi, qorunmasına xidmət edən beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;

–Qafqaz regionunda gərginliyin aradan qaldırılması və mehriban qonşuluq münasibətlərinin bərqərar olmasına çalışmaq;

–Azərbaycan Respublikasına xarici təzyiqlərin qarşısını almağa və ya minimuma endirməyə imkan verən beynəlxalq himayə mexanizminin yaradılmasına səy göstərmək;

–Respublikanın bütün beynəlxalq, regional, elmi-texniki, mədəni, iqtisadi, humanitar və başqa təşkilatlarda fəal şəkildə iştirakına çalışmaq;

–Azərbaycan xalqının mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək;

–Azərbaycan Respublikasının iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası üçün həm daxili, həm də xarici amillərdən faydalanmaq;

–Dünya ölkələrilə humanitar, elmi, mədəni əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmağaçalışmaq və s. (6, s.178).

Bu vəzifələr və onların icrası istiqamətində konkret səylər Azərbaycan Respublikasının beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində atdığı praktiki addımlar və imzaladığı müqavilələrdə də öz əksini tapmışdır. Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin özünəməxsus xüsusiyyətləri var. Siyasi baxımdan Azərbaycanın xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq norma və prinsipləri ilə tənzimlənən qarşılıqlı münasibətlərə hörmət bəsləmək, istər beynəlxalq, istər regional, istərsə də dövlətlərarası münaqişələri sülh və danışıqlar yolu ilə həll etmək, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdır. İqtisadi baxımdan isə Respublikanın xarici siyasətinin mahiyyəti qarşılıqlı-faydalı əməkdaşlığa, iqtisadi maraqların nəzərə alınması, qarşılıqlı təminat mexanizminin yaradılması və qorunmasına əsaslanır. Mədəni baxımdan isə dövlətlərarası münasibətlərə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmağa çalışmaq, mənəvi sərvətləri əngəlsiz, azad və demokratik mübadiləsi də Azərbaycanın xarici siyasətinin əsas mahiyyətini təşkil edir.

Azərbaycanın xarici siyasəti dünya təcrübəsinin ən mühüm nailiyyətlərini, sivil beynəlxalq normalarını özündə ehtiva edir, hər cür dini və etnik məhdudiyyətlərin tətbiqini inkar edir. Azərbaycan Respublikasının xarici siyasəti açıq və demokratik prinsiplər əsaslanıb bütün beynəlxalq normaları özündə əks etdirir. Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər dövlətimizin də üzv olduğu BMT-nin nizamnaməsi, ATƏT-in "Helsinki aktı" və "Paris və İstanbul xartiyaları"nda öz əksini tapmışdır. Azərbaycan dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərdə əsaslandığı əsas prinsiplər aşağıdakılardır:

–Hər bir dövlətin suveren hüquqlarına hörmətlə yanaşmaq, onların daxili işlərinə müdaxilə etməmək;

–Hər bir dövlətin seçdiyi inkişaf yoluna hörmət göstərmək;

–Dövlətlərarası münasibətlərdə beynəlxalq normalara riayət və götürülən öhdəliklərə vicdanla əməl etmək;

–Dövlətlərin ərazi bütövlüyünün pozulması, sərhədlərinin zorla dəyişdirilməsinə əngəl olmaq və dövlət müstəqilliyinin təhlükə altına atılmasına yol verməmək;

–Mübahisəli məsələləri mümkün olduğu qədər dinc yolla həllinə çalışmaq;

–İctimai, siyasi, iqtisadi və mədəni münasibətlərdə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, qarşılıqlı maraq və mənafeləri gözləmək, qarşılıqlı təhlükəsizliyə çalışmaq, bu istiqamətdə perspektivli həll yolları axtarmaq və həyata keçirilməsinə çalışmaq;

–Hər bir xalqın və millətin öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşmaq, insanların hüquq və haqlarını qorumaq;

–Separatçılıq fəaliyyəti, terror hadisələri, bütövlükdə hər bir dövlətin və xalqın təhlükəsizliyinə, maddi və mənəvi həyatına zərər verə bilən digər mənfi hallara qarşı birlikdə mübarizə aparmaq;

–Qlobal problemlərin həlli istiqamətində ayrı-ayrı dövlətlərlə birlikdə səy göstərmək və başqa.

Beynəlxalq prinsiplərə əməl etmək BMT, ATƏT və digər beynəlxalq təşkilatların üzv olan hər bir dövlət üçün məcburidir. Bəşəriyyət sadalanan prinsipləri beynəlxalq münasibətlər sisteminin əsas hüquq normalarına çevrilməsi tarixi bir dövr keçirmişdir. Bu gün dünya dövlətləri, məhəlli və beynəlxalq təşkilatlar həm ayrı-ayrılıqda, həm də imzalanan qarşılıqlı müqavilələr, görülən tədbirlər, BMT-nin Nizamnaməsi, ATƏT-in 1975-ci ildə imzalanmış "Helsinki Aktı"na, 1990-cı il "Paris Xartiyasına" və 1999-cu il "İstanbul Xartiyasına" əsasən, müəyyən edilən prinsip və normaları qoruyub saxlamağa, onlara riayət etməyə borcludurlar (6, s.180-181).

Bu gün beynəlxalq hüquq normaları və prinsipləri yeni-yeni kollektiv sənəd və müqavilələrlə daha da zənginləşdirilir. Azərbaycan Respublikası da bu tipli çoxlu sənədlərə imza atmış, hüquqi fəaliyyətini və öhdəliklərinin əhatə dairəsini genişləndirmişdir.

## III. Azərbaycan Respublikasının xarici siyasətinin prioritetləri

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin formalaşması prosesi Azərbaycanda müstəqil dövlət quruculuğu ilə eyni zamanda baş verdiyinə görə dövlətin rastlaşdığı problemlər onun xarici siyasətinə də təsirsiz ötüşməmişdir. Müstəqil xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini müəyyən etmək, gənc və təcrübəsi olmayan bir dövlət üçün heç də asan deyildi. Hər bir dövlət öz xarici siyasəti qarşısındakı vəzifələrin icrası üçün uzunmüddətli strateji və operativ cari fəaliyyət proqramı hazırlayır (6, s.191).

Uzunmüddətli xarici siyasət strategiyası hər bir dövlətin prioritetlərinin (mövcud zaman, məkan və şəraitdə reallaşdıracağı birinci dərəcəli vəzifələr) müəyyən edilməsini tələb edir. Xarici siyasətdə prioritetlər dövlətin uzunmüddətli xarici fəaliyyətinin tərkib hissəsidir. Bu prioritetlər dövlətin qarşısında duran vəzifələri daha dəqiq, qruplaşdırılmış, təsnif edilmiş formada ifadə edir, müəyyən zaman və məkan çərçivəsində önə çıxırlar (6, s.192). Hər bir dövlətin xarici siyasətinin prioritetləri həmin dövlətin rəsmi və qeyri-rəsmi təsisatlarının, vətəndaş cəmiyyəti və ictimaiyyətin tələbləri və istəklərinin əlaqələndirilməsi nəticəsində ortaya çıxan ümumi rəy əsaslanır. Bu rəyi fəaliyyət proqramına çevirmək və onu milli səviyyədə həyata keçirmək dövlətin institutlarının, hüquqi və fiziki şəxslərin fəaliyyətindən, onların öz öhdəliklərini necə icra etməsindən asılıdır. Xarici siyasət prioritetlərinin əlaqələndirilməsi işini reallaşdıran əsas institut Xarici İşlər Nazirliyidir. Müəyyən zaman, məkan və şərait çərçivəsində dövlətin zəruri ictimai tələblərini öyrənən bu nazirlik ümumiləşdirmələr aparır, beynəlxalq aləmlə münasibətlərdə bu tələblərin reallaşdırılması məqsədilə proqram hazır edir və dövlətin ali rəhbərliyinin sərəncamına təqdim edir. Qəbul edilən proqram icra edilməsi Xarici İşlər Nazirliyinə yönləndirilir. Xarici İşlər Nazirliyi prioritetləri reallaşdırmaq üçün həm dövlətin mövcud bütün resurs və potensialını, həm vətəndaşların, həm də dövlətə loyal münasibəti ilə fərqlənən siyasi partiya və ictimai təşkilatların imkanlarını səfərbər edir. Bu baxımdan xarici siyasətin prioritetləri milli birliyin yaranmasında mühüm stimulverici rol oynayır. Baş verən hər hansı bir böhran, müharibə, ölkənin milli təhlükəsizliyi, ərazi bütövlüyü və xalqın həyatına təhdid halları ortaya çıxdıqda insanlarda maraqların və baxışların yaxınlaşması qabarıq şəkildə özünü büruzə verir. Bu cür vəziyyətdən düzgün istifadə, millətinin tələb və təkliflərinin mövcud şərait və zamana görə doğru istiqamətləndirilməsi, real ictimai, siyasi, iqtisadi, hərbi, demoqrafik və s. imkanların nəzərə alınması prioritetləri daha uğurlu şəkildə reallaşdırmağı mümkün edir.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetləri Azərbaycan dövlətinin Konstitusiyasında öz əksini tapmışdır. Ölkə başçısı Konstitusiyanın tələblərinə uyğun olaraq konkret zaman, məkan və şərait çərçivəsində xarici siyasət prioritetlərini müəyyən edir və onların həyata keçirilməsini təmin edir. Müstəqilliyinin əldə olunduğu ilk illərdə Azərbaycan Respublikası xarici siyasət prioritetlərini bir neçə mühüm sahə üzərində qurmalı idi:

1. Bütün vətəndaşların və digər resursları Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması istiqamətində səfərbər etmək;

2. Xarici siyasət resursları, diplomatik və siyasi imkanlardan yararlanmaqla Azərbaycanın müstəqil dövlətçiliyinə təhdid yaradan təhlükələri dəf etmək, milli təhlükəsizliyi təmin etmək, erməni separatçıları və Ermənistan qoşunlarının ölkənin ərazilərini işğal etməsini önləmək, bu məqsədlə müttəfiqlər qazanıb əleyhdarları bitərəfləşdirmək;

3. Dünyanın aktor dövlətləri, beynəlxalq və regional təşkilatlar, kütləvi informasiya vasitələri ilə, diaspora mərkəzləri və başqa qurumlarla hərtərəfli işin təşkilini həyata keçirmək və Azərbaycanın nə üçün əhəmiyyətli tərəfdaş ola biləcəyini başa salmaq;

4. Regionda dövlətimizin maraqlarını, bu yöndə region dövlətləri ilə münasibətlər sistemində ortaq və kəsişən məqamları tədqiq etmək, operativ və çevik fəaliyyət proqramı hazır edib icrasını təmin etmək (6, s.193-194).

Müstəqilliyin ilk illərində bu prioritetləri müəyyənləşdirib həyata keçirmək mümkün olmadı. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyyənləşdirilməsi mümkün oldu (6, s.195). Məhz onun Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlətimizin beynəlxalq münasibətlər sistemində iştirakı və xüsusi yer tutması üçün lazımi addımlar atıldı, ölkənin xarici aləm üçün kəsb etdiyi maraq dairəsi, Azərbaycanın geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi. Beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda üst-üstə düşən, kəsişən maraqları müəyyən edildi. Dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir gücü və əhatə dairəsi, aktor dövlətlərin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycanla bağlı mövqeyi təhlil edildi. 1993-1994-cü illərdə Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasəti və beynəlxalq münasibətlər sistemində təmsil olmasında strateji və cari vəzifələri, beynəlxalq aləmlə münasibətlərinin cizgiləri, prioritetləri müəyyənləşdirildi. İlk növbədə erməni işğalçılarının Azərbaycan torpaqlarından qovulub çıxarılması, əldə edilmiş dövlət müstəqilliyinin qorunub saxlanılması və dövlət təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələrin həllində beynəlxalq təşkilatların dəstəyi qazanıldı. Rusiya və İranla, erməni lobbisinin təsiri ilə Azərbaycana qarşı sanksiyalar qəbul edən ABŞ-la, dünyanın digər Fransa və İngiltərə kimi aktor dövlətləri ilə, Orta Asiyanın qonşu türk respublikaları və başqa dövlətlərlə münasibətlər nizama salındı. Beynəlxalq və regional təşkilatlarla intensiv münasibətlər quruldu, həmin qurumların Azərbaycanın problemlərinin həllindən istifadə etmək üçün tədbirlər görüldü. Xarici kəşfiyyat, informasiya və xəfiyyə orqanlarının Azərbaycandakı fəaliyyəti nəzarət altına alındı.

Müstəqilliyin əldə edildiyi gündən sözsüz ki, Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birincisi dövlət müstəqilliyini qoruyub daha da möhkəmləndirmək, ölkənin təhlükəsizliyini, milli dövlətçilik hüquqlarını təmin etmək və onu beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək olub. Bu prioritet bu gün də Azərbaycan Respublikasının xarici siyasətində öz aktuallığını qoruyur (6, s.195).

Avrasiya məkanında dövlətlərin hərbi təhlükəsizliyini təmin edən iki sistem – Rusiya rəhbərliyi altında "Kollektiv Təhlükəsizlik Müqaviləsi" və ABŞ rəhbərliyində NATO bloku mövcuddur. Bu sistemlərlə yanaşı müstəqil olaraq öz təhlükəsizliyinin qeydinə qalan İran da mövcuddur. Azərbaycanın yaxın gələcəkdə NATO-ya qoşulmaq ehtimalı hələ ki qeyri real görünür. "Kollektiv Təhlükəsizlik Müqaviləsi"nin bir parçası olmaq da bu gün Azərbaycanın planlarına daxil deyildir. Yaxud Azərbaycan Respublikasının İran və Türkmənistan kimi bitərəf ölkə siyasətinə üstünlük vermək kimi niyyəti də yoxdur. Bu gün ölkəmizin xarici siyasət prioritetlərindən biri də həm kənar təsir və təzyiqlərdən müdafiə olunmaq, həm də öz hərbi təhlükəsizliyini təmin etməkdir (6, s.197).

Müstəqillik əldə etdiyi dövrdən bu günə qədər Azərbaycanın milli gəlirinin mühüm hissəsini və iqtisadiyyatının əsas qismini neft təşkil edirdi. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanan əsrin müqaviləsindən başlayaraq həyata keçirilən yeni neft strategiyasının reallaşdırılması vəzifəsi dövlətin xarici siyasətinin prioritetlərindən biri olmuşdur. Burada bir məqama diqqət yetirmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin 2000-ci il 29 dekabr tarixində "Yeni əsr və üçüncü mi-

nillik münasibətilə Azərbaycan xalqına müraciət"ində də vurğuladığı kimi "*neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir* (2, s.141)*"*. Bu baxımdan da neft strategiyasının əsas mahiyyəti sadəcə Xəzər dənizinin Azərbaycana aid olan hissəsində mövcud karbohidrogen ehtiyatlarının dövriyyəyə buraxılması, dünya bazarlarına təhlükəsiz çıxışının təmin edilməsi deyil, eyni zamanda satışından əldə edilən vəsaitin qeyri-neft sektorunun inkişafına nail olmaq üçün sərf olunmasıdır. Prezident İlham Əliyev də Nazirlər Kabinetinin 2010-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş, 13 iyul tarixində keçirilmiş iclasında bu barədə əbəs yerə qeyd etmirdi ki, qeyri-neft sektorunun inkişafına üstünlük verilməsi Azərbaycanın prioritet məsələlərindəndir (3, s.261).

Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri də ölkənin xarici kapital və investisiya üçün "əlverişli dövlət imicini" qorumaqdır. Bu məqsədlə xarici aləmin də imkanlarından faydalanmaqla qeyri-neft sektorunu inkişaf etdirmək, yeni-yeni iş yerləri açmaq, manatın kursunu sabit saxlayıb inflyasiyanı idarə etmək nəzərdə tutulur. Bu istiqamətdə beynəlxalq maliyyə qurumları ilə səmərəli əməkdaşlığa davam etmək, xarici borcları nəzarət olunacaq səviyyədə saxlamaq və tədricən Azərbaycanın xarici kapital və neft gəlirlərindən asılılığını aradan qaldırmaq respublikanın xarici siyasətinin əsas prioritetlərindədir.

Azərbaycanın xarici siyasət prioritetləri sırasında Qərb ölkələrinin təmsil olunduğu Avropa Birliyi sisteminə (iqtisadi, siyasi, sosial, mədəni sahədə) və qlobal dünya siyasəti məkanına inteqrasiya da mühüm yer tutur. Odur ki, Avropa İttifaqı və bütün digər beynəlxalq maliyyə strukturları ilə əməkdaşlıq Azərbaycanın xarici iqtisadi siyasətinin əsas prioriteti hesab olunur.

Azərbaycanın xarici siyasət prioritetlərinə dünyada beynəlxalq hüquq normalarına əsaslanan normaların bərqərar olması, bu istiqamətdə təsirli tədbirlərin görülməsi, BMT, ATƏT, NATO kimi qurumların dünyada sülh və əmin-amanlığın və təmin olunmasında daha yaxından iştirakının təmin edilməsi də daxildir. Bu gün Azərbaycan Respublikası transmilli dünya siyasətində yaxından iştirak edir. Bu baxımdan qloballaşma şəraitində regional inteqrasiya, demokratikləşmə, liberallaşma kimi proseslərdə ölkənin vahid strateji yanaşma sərgiləməsi və iştirakı, eyni zamanda görülən işlərin beynəlxalq aləmdə düzgün təqdim olunması xarici siyasətin əsas prioritetlərindən biridir.

Bütün dünya ölkələrində yaşayan soydaşlarımız, onlara məxsus əmlak və mülkiyyətin, milli və vətəndaş haqlarının müdafiəsi də xarici siyasətin prioritet istiqamətlərindəndir. Çünki onlar beynəlxalq aləmdə baş verən hadisələrə təsir etmək anlamında xarici siyasət resursu kimi də çıxış edirlər. Bu resursu qoruyub onun imkanlarını diaspor təşkilatları vasitəsi ilə daha da artırmaq, həm soydaşlarımızın öz hüquqlarının daha yaxşı təmin olunmasında, həm də Azərbaycan Respublikasının mənafeyinin qorunmasında onlardan faydalanmaq xarici siyasətdə ən mühüm prioritetlərdən biri hesab oluna bilər.

Azərbaycanın xarici prioritetlərinə region maraqlarının sistemləşdirilməsi və reallaşması məqsədi ilə atılan mühüm addımları, görülən tədbirləri də aid etmək olar. Məsələn, Azərbaycanın İran, Türkiyə və Rusiya ilə kəsişən və toqquşan maraqların ortaq nöqtəsini tapmaq və əlaqələri yaxşılaşdırmaq, qonşu dövlətlər, o cümlədən də strateji maraqları ölkəmizlə üst-üstə düşən digər region ölkələri ilə müttəfiqlik əlaqələrini inkişaf etdirib daha da genişləndirmək, Xəzər dənizinin statusu, Şərq-Qərb enerji-nəqliyyat kommunikasiya layihələrinin icrasında müttəfiqlərlə birlikdə səy göstərmək və sair (6, s.198-200).

Müstəqilliyi əldə etdiyi ilk illərdən bəri Azərbaycan Respublikasının ən mühüm prioritetlərindən biri də iqtisadi müstəqilliyə nail olmaq idi. Ölkə başçısının da qeyd etdiyi kimi biz buna enerji müstəqilliyi vasitəsi ilə nail olmuşuq. Daha sonra nəqliyyat müstəqilliyi lazımdır. Bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri reallığa çevrilib (4, s.224). Bu da Azərbaycanın nəinki regionda bütövlükdə beynəlxalq aləmdəki strateji əhəmiyyətini daha da artırmaq imkanı verir.

**Nəticə**

Aparılan tədqiqatlar nəticəsində belə qənaətə gəlmək olar ki, Respublikamız müstəqillik əldə etdikdən sonra ilk illərdə nöqsanlı xarici siyasət yeritsə də, 1993-cü ilin iyunundan başlayaraq prezidentlik səlahiyyətlərini həyata keçirən ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə bu istiqamətdə mövcud problemlərə son qoyulmuşdur. Onun prezidentliyi dövründə Azərbaycan Respublikasının xarici siyasətinin düzgün elmi-konseptual əsasları, həm də xarici siyasətin əsas vəzifə, prinsip və prioritetləri düzgün şəkildə müəyyən edilmiş və icra edilmişdir. Ulu Öndərdən sonra onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyevin dövlətimizin xarici siyasətində müəyyən edilən yeni prinsip və prioritetlər Azərbaycanın beynəlxalq aləmdə əhəmiyyətinin daha da artmasında mühüm rol oynamışdır. Bu gün ölkəmizin də yerləşdiyi regionda ölkələrlə əlaqələr sistemi çox mürəkkəb və ziddiyyətlidir. Bu da Azərbaycanın xarici əlaqələrdə balanslı regional siyasət yürütməsini xüsusi prioritet kimi ön plana çıxardır. Çünki balanslı regional siyasət ölkənin təhlükəsizliyi və müstəqil gələcəyi üçün şəksiz ən vacib təminatçısı rolunu oynaya biləcək amildir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. (1997). Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. 46 kitabda. Kitab 1: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr.
2. Əliyev H.Ə. (2010). Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 46 kitabda. Kitab 31: noyabr, 2000 - yanvar, 2001. Bakı: Azərnəşr.
3. Əliyev İ.H. (2017). İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. Kitab 41: May 2010 - İyul 2010. Bakı: Azərnəşr.
4. Əliyev İ.H. (2017) İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. Kitab 44: Dekabr 2010 – Mart 2011. Bakı: Azərnəşr.
5. Həbibbəyli Ə. (2012). Prezident İlham Əliyev yeni dövr xarici siyasətin konseptual əsaslarını müəyyənləşdirdi // "Azərbaycan" qəzeti, 11 oktyabr, № 228.
6. Həsənov Ə.M. (2005). Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: "Azərbaycan" nəşriyyatı.
7. Kərimov V. (1995). Azərbaycan Respublikasının Konstitusiyası: 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul olunmuşdur. 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. Bakı.


## *РЕЗЮМЕ*

***Айгюн АЛИЕВА***

***Научно-концептуальные основы, основные принципы и приоритеты внешней политики Азербайджана***

***Ключевые слова****: Азербайджанская Республика, Гейдар Алиев, Ильхам Алиев, внешняя политика, Министерство иностранных дел*

Статья посвящена изучению научных и концептуальных основ, основных принципов и приоритетов внешней политики независимой Азербайджанской Республики. В результате исследования становится ясно, что формирование научных концептуальных основ внешней политики Азербайджана как независимого государства связано с именем великого лидера Гейдара Алиева. Именно в его выступлениях была определена научная основа внешней политики нашего государства и отражена в Конституции Азербайджанской Республики, принятой всенародным голосованием 12 ноября 1995 года и вступившей в силу 27 ноября. В

ходе исследования систематически изучались основные задачи и принципы внешней политики Азербайджанской Республики. В конце статьи анализируются основные приоритеты внешней политики Азербайджанской Республики. В целом важнейшим результатом статьи является то, что Азербайджанская Республика может обеспечить безопасность и независимое будущее страны, проводя сбалансированную региональную политику под руководством Президента Ильхама Алиева. Процесс государственного строительства имеет постоянный характер. Сегодня строительство современной Азербайджанской Республики основано на принципах государственности, заложенных великим лидером Гейдаром Алиевым, и успешно продолжается.

***SUMMARY***

***Aygun ALİYEVA***

***Scientific-Conceptual Bases, Basic Principles and Priorities of Azerbaijan's Foreign Policy***

***Keywords****: Republic of Azerbaijan, Heydar Aliyev, Ilham Aliyev, foreign policy, Ministry of Foreign Affairs*

The article is devoted to the study of scientific and conceptual foundations, basic principles and priorities of the foreign policy of the independent Azerbaijan Republic. As a result of the study, it becomes clear that the formation of the scientific conceptual foundations of Azerbaijan's foreign policy as an independent state is associated with the name of the great leader Heydar Aliyev. It was in his speeches that the scientific basis of the foreign policy of our state was determined, and reflected in the Constitution of the Republic of Azerbaijan, adopted by popular vote on November 12, 1995 and entered into force on November 27. In the course of the study, the main tasks and principles of the foreign policy of the Republic of Azerbaijan were systematically studied. At the end of the article, the main priorities of the foreign policy of the Republic of Azerbaijan are analyzed. In general, the most important result of the article is that the Republic of Azerbaijan can ensure the security and independent future of the country by pursuing a balanced regional policy under the leadership of President Ilham Aliyev. The process of state building is ongoing. Today, the construction of the modern Republic of Azerbaijan is based on the principles of statehood, laid down by the great leader Heydar Aliyev, and continues successfully.